**Miskinli Şair Vəli** | **Cəmil Əkbər**

## Yerinde / Deyişme

*Vəli:* Uşaqlar pozular, ana süd verməz,
Qayğısı olmasa ata yerində.
Qurd qoyunu qırar, çobanı görməz,
Hər gecə baş verər xəta yerində.

*Əkbər:* Heçkəs meyletməyə haram tikəyə,
Yoğurub yapmamış yağlı kökəyə,
Hamı nifrət edə sümsük köpəyə,
Kötəklər vurula itə yerində.

*Əkbər:* Ay Vəli, ananın özü də olmaz,
Olmasa məhəbbət, əta yerində.
Yolağı, cığırı, izi də olmaz,
Oğullar durmasa ata yerində.

*Vəli:* Gözətçi buraxsa malı pambığa,
Düz xəbər gətirməz saqqaldan bığa,
Qurd qaranlıq sevər, baxmaz işığa,
Yırtıcı istəməz yata yerində.

*Vəli:* Çobanla köpəyin olmasa rəyi,
Bacarar mı qurd, qoyuna gəlməyi?
Gözətçi gərəkdir eyləyə səyi,
Gülləni gözünə ata yerində.

*Əkbər:* Heç kimsə vaxtını itirməyəydi,
Möhnəti boynuna götürməyəydi,
Sulayıb kol-koslar bitirməyəydi,
Çıxarıb mətahın sata yerində.

*Əkbər:* Düzgün işləsəydi hərkəsin başı,
İncidən olmazdı dostu, yoldaşı,
Düz çəkər vicdanda tərəzi daşı,
Heç kimə yetməzdi xəta yerində.

*Vəli:* İnsan dağ üstünə qaldırar dağı,
İstəməz cərgədən geri qalmağı,
Köpəyin qurd ilə yoldaş olmağı,
Qoyar görənləri matı yerində.

*Vəli:* Çoban köpək qurda versə köməyi,
Qurd onlara hazır etsə yeməyi,
Qoyun becərənin itər əməyi,
Qorxu var sürüsü bata yerində.

*Əkbər:* Namərdlər mərdlərə tələ qurmaya,
Kimisə tutmağa çələ qurmaya,
Pusqusunda marıtlayıb durmaya,
Oyana yerində, yata yerində.

*Əkbər:* Heçkimsə qəflətdə yatıb qalmaya,
Üfunət gölünə batıb qalmaya,
Vicdanı, məsləki satıb qalmaya,
Hamı arzusuna çata yerində.

*Vəli:* Adam gərək diqqət verə bu hala,
Çobanla köpəyi basa badvala,
Qurddan, quduzlardan intiqam ala,
Hərkəs öz haqqına çata yerində.

*Vəli:* Dövlətin buraxma qalsa hər yanı,
Tülkü qazı qırar, ayı dananı,
İncidib bezdirər insan-insanı,
Pələng pəncə vurar ata yerində.

*Əkbər:* Nə ola yaxşıya pis deyilməyə,
Qızıla, gümüşə mis deyilməyə,
Xeyirxah bəndəyə nəs deyilməyə,
Hərkəs tez oyana, yata yerində.

*Əkbər:* Hərkəs bu həyatda tapa yerini,
Tökə torpaqlara alın tərini,
Seyredib dayazı, görə dərini,
Əkilən hər toxum bitə yerində.

*Vəli:* *Misginli Vəli*yəm dillər əzbəri,
Ellərin xeyrinə yazdım əsəri,
Xainlər istəyir acı-zəhəri,
Şirin nemətlərə qata yerində.

*Vəli:* Xainlər dadansa erkəc ətinə,
Hiyləgərlər işi salar çətinə,
Heç bir şey tapılmaz öz qiymətinə,
Alan-ala, satan-sata yerində.

*Əkbər:* Mən *Cəmil Əkbər*in eldə adı var,
Qonub çəmənzara güldə adı var,
Muğanda, Şirvanda, Mildə adı var,
Hamı əziz bilib, tuta yerində.